ADAU-nun ELMİ ƏSƏRLƏRİ

ISSN 2310-4104 E-ISSN 2790-5799

10.30546/2790-5799.01.2026.1023

**UOT: 338.2;332.122:004; JEL:M21.I10.**

# ELEKTRON DÖVLƏT XİDMƏTLƏRİ ƏSASINDA BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASININ İSTİQAMƏTLƏRİ

Nəriman Cabbar oğlu Hacıyev

## XÜLASƏ

**Tədqiqatın məqsədi -** elektron dövlət xidmətlərinin biznes mühitinə təsirini qiymətləndirmək, onların sahibkarlıq fəaliyyətinin inkişafına, inzibati xərclərin azaldılmasına və investisiya mühitinin yaxşılaşdırılmasına təsir mexanizmlərini müəyyənləşdirməkdir. Eyni zamanda, rəqəmsal dövlət xidmətləri əsasında biznes mühitinin təkmilləşdirilməsi istiqamətləri əsaslandırılır.

**Tədqiqatın metodologiyası -** tədqiqat zamanı müqayisəli təhlil, sistemli yanaşma, statistik analiz, normativ-hüquqi sənədlərin təhlili və empirik məlumatların ümumiləşdirilməsi metodlarından istifadə edilmişdir. Elektron xidmətlərin biznes subyektlərinə təsirinin qiymətləndirilməsi üçün analitik və məntiqi ümumiləşdirmə üsulları tətbiq olunmuşdur.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** Tədqiqatın nəticələri dövlət orqanları tərəfindən elektron xidmətlərin optimallaşdırılması, biznes üçün rəqəmsal platformaların genişləndirilməsi və sahibkarlıq mühitinin yaxşılaşdırılması istiqamətində qərarların qəbulunda istifadə oluna bilər. Eyni zamanda, işgüzar mühitin şəffaflığının və rəqabət qabiliyyətinin artırılmasına praktik töhfə verir.

**Tədqiqatın nəticələri -** Aparılmış təhlillər göstərir ki, elektron dövlət xidmətlərinin geniş tətbiqi biznes qeydiyyatı, lisenziyalaşdırma və vergi prosedurlarının sadələşdirilməsinə, vaxt və maliyyə itkilərinin azalmasına, eləcə də sahibkarlıq fəaliyyətinin aktivləşməsinə müsbət təsir göstərir. Rəqəmsallaşma biznes mühitinin səmərəliliyini və institusional keyfiyyətini artırır.

**Tədqiqatın elmi yeniliyi -** Tədqiqatda elektron dövlət xidmətləri ilə biznes mühitinin inkişafı arasında qarşılıqlı əlaqə kompleks şəkildə təhlil edilmiş, rəqəmsal transformasiyanın sahibkarlıq ekosisteminə təsir mexanizmləri sistemli şəkildə əsaslandırılmışdır. Eyni zamanda, elektron xidmətlər əsasında biznes mühitinin inkişaf istiqamətləri üzrə konseptual yanaşma irəli sürülmüşdür.

**Açar sözlər:** elektron dövlət, biznes mühiti, rəqəmsallaşma, institusional inkişaf, rəqəmsal inklüzivlik, dövlət-biznes münasibətləri.

## Giriş.

Qlobal iqtisadiyyatın müasir inkişaf mərhələsində dövlət idarəetməsinin rəqəmsallaşması iqtisadi artımın dolayı, lakin strateji determinantlarından biri kimi çıxış edir. Xüsusilə elektron dövlət xidmətlərinin tətbiqi inzibati idarəetmənin səmərəliliyini artırmaqla yanaşı, biznes mühitinin institusional keyfiyyətinə, sahibkarlıq subyektlərinin fəaliyyət azadlığına və bazar münasibətlərinin şəffaflığına mühüm təsir göstərir. Müasir elmi yanaşmalarda elektron dövlət yalnız texniki innovasiya kimi deyil, dövlət-biznes münasibətlərinin strukturunu dəyişən institusional transformasiya mexanizmi kimi qiymətləndirilir (World Bank, 2020, GovTech maturity index: Building digital government systems). Beynəlxalq təcrübə göstərir ki, elektron dövlət xidmətlərinin geniş tətbiq edildiyi ölkələrdə biznes subyektləri üçün transaksiya xərcləri azalır, qeydiyyat və icazə prosedurları sadələşir, normativ qeyri-müəyyənliklər minimuma endirilir. Elektron platformalar üzərindən təqdim edilən dövlət xidmətləri sahibkarların vaxt itkilərini və inzibati yükünü azaltmaqla bazara daxilolma baryerlərini zəiflədir və təşəbbüskarlıq fəallığını stimullaşdırır (OECD, 2019). Bu baxımdan elektron dövlət mexanizmləri biznes mühitinin inkişafında dolayı fiskal və struktur təsirlərə malik institusional alət kimi çıxış edir. Lakin elektron dövlət xidmətlərinin biznes mühitinə təsiri bütün ölkələrdə eyni intensivliklə müşahidə olunmur.

---

Əsas müəllif/Corresponding author: Nəriman Cabbar oğlu Hacıyev, iqtisad üzrə fəlsəfə doktoru , ADİU, doktorant, https://orcid.org/0009-0008-8700-3904, e-mail: narimangd@yahoo.com

Elmi tədqiqatlar göstərir ki, rəqəmsal infrastrukturun qeyri-bərabər inkişafı, rəqəmsal savadlılıq səviyyəsində fərqlər, eləcə də elektron xidmətlərin institusional inteqrasiya dərəcəsi elektron dövlətin iqtisadi potensialını məhdudlaşdıran əsas problemlər sırasındadır (UN, 2022). Xüsusilə əksər ölkələrdə elektron xidmətlərin formal mövcudluğu ilə onların real iqtisadi təsiri arasında institusional boşluqlar qalmaqdadır. Bu isə elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin yalnız texniki deyil, kompleks sosial-iqtisadi yanaşma əsasında araşdırılmasını zəruri edir.

Azərbaycan Respublikasında elektron dövlət xidmətlərinin inkişafı son illərdə dövlət idarəetməsinin modernləşdirilməsi istiqamətində prioritet siyasət xətti kimi müəyyən edilmişdir. Elektron qeydiyyat, vergi və gömrük xidmətlərinin rəqəmsallaşdırılması, lisenziyalaşdırma və hesabatlılıq mexanizmlərinin elektron platformalar üzərindən həyata keçirilməsi biznes subyektləri ilə dövlət orqanları arasında münasibətlərin yeni keyfiyyət mərhələsinə keçidini təmin etmişdir (Azərbaycan Respublikası, 2022; Azerbaijan Digital Government Platform, 2024). Bu proses biznes fəaliyyətinin institusional əsaslarını gücləndirməklə yanaşı, sahibkarlıq mühitində şəffaflığın artmasına və normativ etimadın formalaşmasına da şərait yaratmışdır. Bununla yanaşı, mövcud nailiyyətlərə baxmayaraq, Azərbaycanda elektron dövlət xidmətləri əsasında biznes mühitinin inkişafı bir sıra struktur problemlərlə müşayiət olunur. Regionlar üzrə rəqəmsal infrastrukturun qeyri-bərabərliyi, kiçik və mikro sahibkarlıq subyektlərinin elektron xidmətlərdən istifadə imkanlarının məhdudluğu, bəzi inzibati prosedurların hələ də tam inteqrasiya olunmaması biznes mühitinin inkişafında institusional asimmetriyaların mövcudluğunu göstərir (Azərbaycan Respublikası, 2021, Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər; Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri). Bu amillər elektron dövlət xidmətlərinin potensial iqtisadi effektlərinin tam reallaşmasına mane olan əsas çağırışlar kimi çıxış edir. Beləliklə, elektron dövlət xidmətləri əsasında biznes mühitinin inkişaf istiqamətlərinin elmi əsaslarla təhlili həm mövcud problemlərin sistemləşdirilməsi, həm də dövlət siyasətinin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Təqdim olunan tədqiqat məhz bu kontekstdə elektron dövlət xidmətlərinin biznes mühitinə təsir mexanizmlərini müəyyənləşdirməyi, mövcud institusional boşluqları qiymətləndirməyi və Azərbaycan reallığı üçün praktik əhəmiyyət kəsb edən nəticələr irəli sürməyi hədəfləyir.

**Dövlət-biznes münasibətlərinin rəqəmsallaşması**

Yeni institusional iqtisadiyyat çərçivəsində dövlət-biznes münasibətlərinin səmərəliliyi inzibati prosedurların mürəkkəblik səviyyəsi və normativ qeyri-müəyyənlik dərəcəsi ilə birbaşa əlaqələndirilir. Elektron dövlət xidmətləri bu münasibətlərin transformasiyasında inzibati baryerlərin azaldılması və prosedurların standartlaşdırılması baxımından əsas institusional mexanizm kimi çıxış edir. Azərbaycan təcrübəsi bu nəzəri yanaşmanın praktik müstəvidə reallaşmasını nümayiş etdirən mühüm nümunə hesab oluna bilər. Azərbaycanda biznes subyektlərinin dövlətlə qarşılıqlı münasibətlərinin rəqəmsallaşdırılması ilk növbədə sahibkarlıq fəaliyyətinin qeydiyyatı, vergi uçotu və lisenziyalaşdırma prosedurlarında özünü göstərmişdir. Elektron qeydiyyat mexanizmlərinin tətbiqi nəticəsində yeni biznes subyektlərinin qeydiyyata alınması üçün tələb olunan vaxt əhəmiyyətli dərəcədə azalmış, prosedur sayı minimuma endirilmişdir. Bu dəyişikliklər Douglass North-un institusional nəzəriyyəsində vurğulanan "oyun qaydalarının sadəliyi və şəffaflığı" prinsipinə uyğun olaraq iqtisadi agentlərin davranışlarını daha rasional və təşəbbüskar yönümlü etmişdir (North, 1990).

Empirik məlumatlar göstərir ki, elektron vergi xidmətlərinin tətbiqi sahibkarların dövlət orqanları ilə birbaşa təmasını azaltmaqla inzibati yükü zəiflədir və normativ icra

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

mexanizmlərinin obyektivliyini artırır. Azərbaycan Respublikasında vergi hesabatlarının elektron formada təqdim edilməsi vergi intizamının güclənməsinə, eyni zamanda kiçik və orta sahibkarlıq subyektləri üçün inzibati xərclərin azalmasına şərait yaratmışdır. Bu proses biznes mühitində institusional etimadın formalaşmasını sürətləndirən əsas amillərdən biri kimi çıxış edir (Musayeva və b., 2020). Transaksiya xərcləri nəzəriyyəsinə əsasən, dövlət-biznes münasibətlərində yaranan əsas iqtisadi itkilər istehsal mərhələsindən daha çox inzibati və informasiya mübadiləsi proseslərində formalaşır. Elektron dövlət xidmətləri bu xərclərin azaldılmasına yönəlmiş institusional innovasiya kimi çıxış edir. Azərbaycan təcrübəsində elektron xidmətlərin transaksiya xərclərinə təsiri əsasən vaxt, maliyyə və risk amilləri üzrə müşahidə olunur. Empirik baxımdan, elektron gömrük və vergi sistemlərinin tətbiqi sahibkarlıq subyektlərinin əməliyyat vaxtını azaltmaqla yanaşı, prosedur xərclərinin optimallaşdırılmasına da imkan yaratmışdır. Məlumatların vahid elektron platformalar üzərindən təqdim edilməsi informasiya asimmetriyasını zəiflədir, normativ tələblərin icrasında qeyri-müəyyənliyi azaldır və inzibati qərarların proqnozlaşdırıla bilmə səviyyəsini yüksəldir. Bu isə transaksiya xərclərinin institusional səviyyədə azalmasına səbəb olur. Beynəlxalq müqayisəli tədqiqatlarda da bu tendensiya təsdiqlənir. Dünya Bankı tərəfindən aparılan araşdırmalara əsasən, elektron dövlət xidmətlərinin inkişaf etdiyi ölkələrdə biznes mühitində əməliyyat xərclərinin azalması yeni sahibkarlıq təşəbbüslərinin artımı ilə müşayiət olunur (World Bank, 2020). Azərbaycan üzrə statistik müşahidələr də göstərir ki, elektron xidmətlərin genişləndirilməsi fonunda yeni qeydiyyatdan keçən sahibkarlıq subyektlərinin sayında müsbət dinamika formalaşmışdır (Məmmədov və Amanova, 2025). Beynəlxalq təşkilatların metodoloji tövsiyələrinə əsasən, elektron dövlət xidmətlərinin transaksiya xərclərinə real təsir göstərməsi üçün xidmətlərin sadəcə rəqəmsallaşdırılması kifayət etmir; əsas məsələ onların institusional inteqrasiya səviyyəsidir. İƏİT-nin tədqiqatlarında vurğulanır ki, elektron dövlət xidmətləri biznes subyektləri üçün "istifadəçi yönümlü" və "vahid pəncərə" prinsipi əsasında təşkil edildikdə inzibati səmərəlilik maksimum səviyyəyə çatır (OECD, 2019). Bu baxımdan Azərbaycan təcrübəsində ASAN Xidmət modeli dövlət-biznes münasibətlərində transaksiya xərclərinin azaldılması baxımından mühüm institusional platforma kimi formalaşmışdır. ASAN mexanizmi fiziki və elektron xidmətlərin inteqrasiyasını təmin etməklə prosedur xərclərini azaltmış, korrupsiya risklərini zəiflətmiş və biznes subyektləri üçün normativ etimadı gücləndirmişdir. Bununla yanaşı, beynəlxalq tövsiyələr göstərir ki, regional səviyyədə rəqəmsal infrastrukturun qeyri-bərabərliyi və rəqəmsal savadlılıq problemləri elektron dövlət xidmətlərinin iqtisadi təsirini məhdudlaşdıra bilər (ASAN Xidmət, 2024; UN, 2022).

Beləliklə, Azərbaycan təcrübəsi göstərir ki, dövlət-biznes münasibətlərinin rəqəmsallaşması inzibati prosedurların sadələşdirilməsi və transaksiya xərclərinin azaldılması baxımından əhəmiyyətli institusional nəticələr yaratsa da, bu təsirin davamlı və inklüziv olması üçün elektron xidmətlərin keyfiyyəti, inteqrasiyası və regional əlçatanlığı prioritet istiqamətlər kimi qalmaqdadır.

Müasir iqtisadi nəzəriyyələrdə biznes fəaliyyətinin intensivliyi yalnız bazar konyunkturası ilə deyil, eyni zamanda inzibati mühitin yaratdığı vaxt və maliyyə xərcləri ilə şərtlənir. Yeni institusional iqtisadiyyat və transaksiya xərcləri nəzəriyyəsinə görə, dövlətlə qarşılıqlı münasibətlərdə yaranan əlavə vaxt itkisi və prosedur xərcləri sahibkarlıq təşəbbüslərini zəifədən əsas institusional maneələrdən biridir. Elektron dövlət xidmətləri məhz bu xərclərin azaldılmasına yönəlmiş struktur mexanizm kimi çıxış edir. Nəzəri baxımdan, elektron xidmətlərin tətbiqi biznes subyektlərinin dövlət orqanları ilə qarşılıqlı əlaqələrində "prosedur sıxlığını" azaldır və inzibati əməliyyatların icra müddətini minimuma endirir. Rəqəmsal platformalar vasitəsilə təqdim edilən xidmətlər sənədlərin fiziki

toplanması, təkrar müraciətlər və qeyri-formal əlaqə ehtiyacını aradan qaldıraraq, sahibkarların vaxt resurslarını əsas biznes fəaliyyətinə yönəltməsinə imkan yaradır. Bu yanaşma iqtisadi nəzəriyyədə "inzibati səmərəlilik effekti" kimi izah olunur və biznes mühitinin keyfiyyətinin yüksəlməsi ilə birbaşa əlaqələndirilir (OECD, 2019).

Azərbaycan təcrübəsində elektron dövlət xidmətlərinin vaxt və maliyyə xərclərinə təsiri xüsusilə biznesin qeydiyyatı, vergi və hesabatlılıq sahələrində müşahidə olunur. Elektron qeydiyyat və elektron vergi xidmətlərinin tətbiqi nəticəsində sahibkarlıq subyektlərinin dövlət orqanlarına müraciət sayı azalmış, əməliyyat müddətləri qısalmış və dolayı maliyyə xərcləri minimuma endirilmişdir. Empirik müşahidələr göstərir ki, bu mexanizm kiçik və orta sahibkarlıq subyektləri üçün inzibati yükün azalmasına və biznes fəaliyyətinin nisbətən çevik təşkilinə şərait yaratmışdır. Belə tendensiyalar əmlak və digər bazarlarda da müşahidə edilmişdir (Ganbarov və b., 2020). Sustainable Development of the Mortgage Market in Azerbaijan: Commercial Risks of Housing Construction, Social Vision, and State Influence, 2020). Beynəlxalq təşkilatların tədqiqat nəticələri də bu yanaşmanı təsdiqləyir. Dünya Bankının qiymətləndirmələrinə əsasən, elektron dövlət xidmətlərinin inkişaf etdiyi ölkələrdə biznes subyektlərinin əməliyyat xərclərinin azalması bazara daxilolma fəallığının artması ilə müşayiət olunur (World Bank, 2020).

Azərbaycan üzrə statistik dinamika da göstərir ki, elektron xidmətlərin genişləndirilməsi fonunda sahibkarlıq subyektlərinin qeydiyyat göstəricilərində müsbət meyllər formalaşmışdır (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri). Elektron dövlət xidmətlərinin biznes fəaliyyətinə təsir mexanizmlərindən biri də şəffaflığın artırılması və institusional etimadın formalaşdırılmasıdır. İqtisadi nəzəriyyədə etimad dövlət institutlarının sabitliyi və proqnozlaşdırıla bilməsi ilə sıx bağlıdır. Dövlət-biznes münasibətlərində şəffaflıq səviyyəsinin aşağı olması qeyri-rəsmi davranışları stimullaşdırır və uzunmüddətli investisiya qərarlarını məhdudlaşdırır. Elektron dövlət xidmətləri bu problemi aradan qaldırmaq üçün normativ proseslərin açıq və izlənilə bilən formada təşkili mexanizmi kimi çıxış edir. Nəzəri baxımdan, elektron xidmətlərin tətbiqi qərar qəbuletmə prosesində insan amilinin təsirini azaldaraq, prosedur qaydalarının standartlaşmasını təmin edir. Bu isə korrupsiya risklərinin zəifləməsinə, normativ icranın obyektivliyinə və sahibkarların dövlət institutlarına olan etimadının artmasına şərait yaradır. Yeni institusional yanaşmalarda bu proses "rəqəmsal etimad effekti" kimi izah olunur və biznes mühitinin uzunmüddətli dayanıqlığının əsas şərtlərindən biri hesab edilir (North, 1990).

Azərbaycan təcrübəsində elektron dövlət xidmətlərinin şəffaflıq və etimad mexanizminə təsiri xüsusilə vergi və icazə sistemlərində müşahidə olunur. Elektron vergi bəyannamələrinin və onlayn icazə mexanizmlərinin tətbiqi sahibkarların normativ tələbləri əvvəlcədən görməsinə və icra prosesini izləməsinə imkan yaratmışdır. Bu isə subyektiv müdaxilə risklərini azaltmaqla biznes subyektlərinin hüquqi təhlükəsizlik hissini gücləndirmişdir. Nəticə etibarilə, elektron xidmətlər biznes mühitində davranış modellərinin daha rəsmi və proqnozlaşdırıla bilən formaya keçidini stimullaşdırmışdır. Beynəlxalq səviyyədə aparılan tədqiqatlar da göstərir ki, elektron dövlət xidmətləri korrupsiya risklərinin azaldılması və institusional etimadın möhkəmləndirilməsi baxımından effektiv alət kimi çıxış edir. BMT tərəfindən hazırlanmış Elektron Hökumət hesabatlarında vurğulanır ki, elektron xidmətlərin biznes mühitində yaratdığı əsas üstünlüklərdən biri normativ proseslərin açıq və ölçülə bilən hala gətirilməsidir (United Nations, 2022; United Nations, 2022). Bu yanaşma sahibkarlıq fəaliyyətinin genişlənməsi üçün əlverişli institusional mühit formalaşdırır.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

Beləliklə, elektron dövlət xidmətləri biznes fəaliyyətinə yalnız inzibati xərclərin azaldılması yolu ilə deyil, eyni zamanda şəffaflıq və etimad mexanizmləri vasitəsilə də təsir göstərir. Bu iki mexanizmin qarşılıqlı təsiri biznes mühitinin institusional keyfiyyətini yüksəldərək sahibkarlıq fəallığının davamlı artımını təmin edən əsas struktur amil kimi çıxış edir.

**Azərbaycanda elektron xidmətlər sahəsində həyata keçirilən tədbirlər** Son illərdə qlobal iqtisadi sistemdə müşahidə olunan struktur dəyişikliklər və rəqəmsallaşmanın sürətlənməsi dövlət idarəçiliyində yeni yanaşmaların formalaşmasını zəruri etmişdir. Elektron hökumət və rəqəmsal dövlət xidmətləri bu transformasiyanın əsas komponentlərindən biri kimi çıxış edərək, idarəetmənin səmərəliliyinin artırılması ilə yanaşı, biznes mühitinin keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynamağa başlamışdır (UN, 2022). Bu baxımdan Azərbaycanda elektron xidmətlər sahəsində həyata keçirilən tədbirlər təkcə texnoloji yenilik kimi deyil, institusional islahatların ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir. Ölkədə elektron xidmətlərin inkişafı dövlət siyasətinin ardıcıl və məqsədyönlü istiqaməti kimi formalaşmışdır. Xüsusilə ASAN xidmət modelinin tətbiqi, elektron hökumət portalının genişləndirilməsi, vergi, gömrük və qeydiyyat xidmətlərinin rəqəmsallaşdırılması dövlət-biznes münasibətlərində yeni keyfiyyət mərhələsinin əsasını qoymuşdur. Beynəlxalq qiymətləndirmələrdə “ASAN Xidmət” modelinin şəffaflıq, xidmət keyfiyyəti və institusional etimad baxımından uğurlu nümunə kimi təqdim olunması bu yanaşmanın effektivliyini təsdiqləyir (hökumət portalı, ASAN Xidmət, 2024; OECD, 2020). Elektron xidmətlər sahəsində görülən tədbirlərin ilkin nəticələri biznes mühitinin müxtəlif komponentlərində özünü göstərməkdədir. İlk növbədə, sahibkarlıq fəaliyyətinin qeydiyyatı və idarə olunması proseslərinin elektronlaşdırılması inzibati prosedurların sadələşdirilməsinə, vaxt və transaksiya xərclərinin azalmasına şərait yaratmışdır. Dünya Bankının biznes mühiti üzrə qiymətləndirmələrində qeyd olunduğu kimi, qeydiyyat və icazə mexanizmlərinin rəqəmsallaşdırılması yeni biznes subyektlərinin formallaşmasını sürətləndirən əsas amillərdən biridir (World Bank, 2020, Doing business 2020: Comparing business regulation in 190 economies).

Elektron xidmətlərin tətbiqi eyni zamanda dövlət və biznes arasında münasibətlərin daha şəffaf və izlənə bilən mexanizmlər üzərində qurulmasına imkan vermişdir. Elektron platformalarda müraciətlərin qeydiyyatı, xidmət müddətlərinin əvvəlcədən müəyyən olunması və nəticələrin rəqəmsal izinin qalması subyektiv qərarvermə imkanlarını məhdudlaşdıraraq korrupsiya risklərinin azalmasına töhfə verir (UN, 2022). Bu baxımdan elektron xidmətlər biznes mühitində institusional etimadın möhkəmləndirilməsinə xidmət edən mühüm idarəetmə aləti kimi çıxış edir. Həyata keçirilən tədbirlərin mühüm nəticələrindən biri də fiskal və maliyyə mühitində müşahidə olunan dəyişikliklərdir. Elektron vergi xidmətləri və dövlət ödənişlərinin rəqəmsal kanallar üzərindən həyata keçirilməsi nağdsız dövriyyənin genişlənməsinə, iqtisadi əməliyyatların daha böyük hissəsinin rəsmi uçota cəlb olunmasına şərait yaratmışdır. Tədqiqatlar göstərir ki, bu proses vergi bazasının genişlənməsi və kölgə iqtisadiyyatının miqyasının mərhələli şəkildə azalması üçün institusional əsas formalaşdırır (OECD, 2020, The path to becoming a data-driven public sector; World Bank, 2020, Doing business 2020: Comparing business regulation in 190 economies). Bununla yanaşı, elektron xidmətlər sahəsində əldə edilən nəticələrin davamlılığı bir sıra struktur və institusional amillərdən asılı olaraq qalmaqdadır. Regionlar üzrə rəqəmsal infrastrukturun qeyri-bərabər inkişafı, sahibkarların rəqəmsal bacarıqlar səviyyəsində fərqlər və informasiya sistemləri arasında tam inteqrasiyanın təmin olunmaması elektron xidmətlərin biznes mühitinə təsir potensialını müəyyən dərəcədə məhdudlaşdırır (UN, 2022; United Nations, 2022). Bu isə göstərir ki, elektron xidmətlərin

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

dəyərləndirilməsi yalnız texnoloji göstəricilər əsasında deyil, institusional və insan kapitalı amilləri ilə birlikdə aparılmalıdır.

Beləliklə, Azərbaycanda elektron xidmətlər sahəsində həyata keçirilən tədbirlərin ilkin qiymətləndirilməsi göstərir ki, bu islahatlar biznes mühitinin sadələşdirilməsi, şəffaflığın artırılması və iqtisadi fəaliyyətin rəsmiləşdirilməsi baxımından əhəmiyyətli müsbət nəticələr formalaşdırmışdır. Eyni zamanda, elektron xidmətlərin real sektor və regionlar üzrə təsirinin empirik əsaslarla araşdırılması onların uzunmüddətli iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün aktual elmi-tədqiqat istiqaməti kimi çıxış edir. Azərbaycanda elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin qiymətləndirilməsi, mahiyyət etibarilə, iki paralel müstəvini əhatə edir:

- rəqəmsal dövlət infrastrukturunun inkişaf səviyyəsi,
- biznes mühitinin keyfiyyətini və sahibkarlıq fəallığını əks etdirən göstəricilər.

Yeni institusional iqtisadiyyat yanaşmasına əsasən, "oyun qaydaları"nı ifadə edən institutlar dəyişdikcə, iqtisadi agentlərin davranış modeli və qərar qəbulu mexanizmləri də transformasiyaya uğrayır (North, 1990). Elektron dövlət xidmətləri də məhz bu institutların rəqəmsal müstəvidə yenidən qurulması kimi çıxış edir. Ona görə də qiymətləndirmə yalnız texniki-statistik deyil, həm də institusional və davranış aspektlərdə aparılmalıdır. Praktik tərəfdən bu təsirin qiymətləndirilməsi üçün aşağıdakı suallar ətrafında yanaşma formalaşdırmaq məqsədəuyğundur: elektron qeydiyyat, vergi və icazə xidmətləri biznesin gündəlik əməliyyatlarını necə dəyişib; sahibkarın dövlət orqanına getdiyi "fiziki addımların", gözləmə vaxtının, sənəd yüklərinin real azalma dərəcəsi nədir; elektron xidmətlərdən istifadənin artması rəsmi sektorun payı, vergi intizamı, yeni bizneslərin yaranması kimi göstəricilərə necə yansıyır. Bu suallar həm nəzəri məntiqi, həm də əməli müşahidələri birləşdirən qiymətləndirmə çərçivəsi yaradır (OECD, 2019; World Bank, 2020, GovTech maturity index: Building digital government systems). Azərbaycan son onillikdə dövlət idarəetməsinin rəqəmsallaşdırılması sahəsində bir neçə strateji addım atmışdır:

- Mərkəzləşdirilmiş elektron hökumət portalının yaradılması,
- Vergi, gömrük, qeydiyyat, icazə və lisenziyalaşdırma xidmətlərinin onlayn rejimə keçirilməsi,
- ASAN xidmət modelinin formalaşdırılması, "rəqəmsal iqtisadiyyat", "açıq hökumət", "asandlaşdırılmış xidmət" kimi istiqamətlərin dövlət proqramlarında prioritetləşdirilməsi (Azerbaijan Digital Government Platform, 2024; Azərbaycan Respublikasının Elektron Hökumətin İnkişafı Mərkəzi, 2024; ASAN Xidmət, 2024, Azərbaycanda inteqrasiya olunmuş dövlət xidmətlərinin göstərilməsi modeli).

Bütün bu tədbirlər göstərir ki, elektron xidmətlər artıq "əlavə rahatlıq" yox, biznes mühitinin əsas struktur elementi kimi nəzərdə tutulur. Praktik müstəvidə bu, sahibkar üçün belə görünür:

- Biznes açmaq üçün bir neçə quruma getmək əvəzinə, vahid pəncərə prinsipi ilə onlayn müraciət,
- vergi bəyannaməsini kağızda doldurmaq əvəzinə, elektron kabinetdən təqdim etmək,
- lisenziya və icazə üçün fiziki növbələr əvəzinə, rəqəmsal müraciət statusunu real vaxtda izləmək.

Bu dəyişikliklər yalnız prosedurun "yeri"ni dəyişmir, həm də dövlət-biznes münasibətlərinin psixologiyasını və etimad səviyyəsini formalaşdırır (United Nations, 2022). Müasir tədqiqatlara görə, Azərbaycanda biznes mühitinin keyfiyyətinin qiymətləndirilməsi və yaxşılaşdırılması yalnız normativ aktların sayı və ya formal islahatların mövcudluğu ilə məhdudlaşdırıla bilməz (OECD, 2019; World Bank, 2020). Milli iqtisadiyyatın struktur xüsusiyyətləri, qeyri-formal sektorun tarixi çəkisi, regionlararası fərqlər və kiçik sahibkarlığın

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

dominant rolu nəzərə alındıqda, biznes mühitinə təsir edən əsas amillər daha çox institusional davranış dəyişiklikləri və idarəetmə praktikalarının sadələşməsi ilə bağlıdır. Bu baxımdan elektron dövlət xidmətləri Azərbaycanda biznes mühitinin transformasiyası üçün alternativ deyil, zəruri və tətbiqi mümkün əsas mexanizm kimi çıxış edir.

Hesab etmək mümkündür ki, elektron dövlət xidmətlərinin biznes mühitinə təsiri birbaşa statistik nəticələr üzərindən deyil, əsas indikatorlar vasitəsilə dolayı şəkildə qiymətləndirilməlidir. Azərbaycan şəraitində bu indikatorlara yeni qeydiyyatdan keçən sahibkarlıq subyektlərinin dinamikası, aktiv hüquqi şəxslərin və KOS-ların iqtisadiyyatda payı, biznesin qeydiyyat müddəti və prosedur sayı, vergi və gömrük əməliyyatlarının icra vaxtı, qeyri-formal iqtisadiyyatın miqyası, eləcə də sahibkarların rəsmi kanallardan istifadə davranışı daxildir. Məhz bu göstəricilər biznes mühitinin real funksionallığını və institusional etibarlılığını əks etdirir.

Azərbaycan təcrübəsi göstərir ki, elektron xidmətlər bu indikatorlara birbaşa müdaxilə etmir, lakin onların formalaşma mexanizmini köklü şəkildə dəyişir. Qeydiyyat prosedurlarının elektronlaşdırılması bazara girişlə bağlı ənənəvi psixoloji və inzibati baryerləri zəiflədir. Bizim mövqeyimizə görə, burada əsas məsələ qeydiyyatın sürətlənməsi deyil, sahibkar üçün dövlətlə təmasın "riskli" deyil, "proqnozlaşdırılan" prosesə çevrilməsidir. Bu yanaşma xüsusilə mikro və kiçik biznes subyektlərinin rəsmi fəaliyyətə keçidini stimullaşdıran əsas amillərdən biridir.

Vergi və hesabatlılıq sahəsində elektron mexanizmlərin tətbiqi də Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır Hesab olunur ki, vergi intizamının gücləndirilməsi yalnız nəzarətin sərtləşdirilməsi yolu ilə deyil, rəsmi fəaliyyətin əməliyyat baxımından daha sadə və əlçatan edilməsi ilə mümkün ola bilər (OECD, 2019; World Bank, 2020). Elektron vergi xidmətləri sahibkar üçün vaxt itkisini və əməliyyat yükünü azaltdıqca, qeyri-formal fəaliyyətin nisbi üstünlüyü zəifləyir. Bu isə qeyri-formal iqtisadiyyatın payının azaldılması üçün inzibati deyil, institusional əsas yaradır.

Gömrük, lisenziya və icazə prosedurlarının elektronlaşdırılması isə Azərbaycan kimi ixrac potensialını genişləndirməyə çalışan ölkə üçün strateji əhəmiyyətə malikdir. Bizim mövqeyimizə görə, elektron gömrük və icazə mexanizmləri ticarət və investisiya mühitində əsas risk faktorlarından biri olan qeyri-müəyyənliyi azaldır. Əməliyyat müddətlərinin qısalması, prosedurların standartlaşdırılması və insan amilinin minimallaşdırılması biznes qərarlarının daha rasional əsaslarla qəbul edilməsinə şərait yaradır. Eyni zamanda, elektron dövlət xidmətlərinin Azərbaycan üçün əhəmiyyəti yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır. Bu xidmətlər dövlət-biznes münasibətlərində yeni institusional mədəniyyət formalaşdırır. Şəffaf prosedurlar, rəqəmsal iz buraxan əməliyyatlar və standart xidmət modelləri sahibkarın dövlətə münasibətində etimad faktorunu gücləndirir (OECD, 2019; World Bank, 2020). Bizim qənaətimizə görə, məhz bu etimad faktoru aktiv hüquqi şəxslərin və KOS-ların uzunmüddətli fəaliyyətini təmin edən əsas şərtlərdən biridir. Bu kontekstdə ASAN xidmət modeli Azərbaycanda elektron xidmətlərin tətbiqinin yalnız texniki deyil, institusional mahiyyət daşıdığını nümayiş etdirir. Bu model dövlət xidmətlərinin sadələşdirilməsinin biznes mühitinə dolayı, lakin davamlı təsir mexanizmini formalaşdıran praktik nümunə kimi çıxış edir.

Nəticə olaraq, belə baxışı irəli sürmək mümkündür ki, Azərbaycanda elektron dövlət xidmətləri biznes mühitinin qiymətləndirilməsində köməkçi amil deyil, əsas institusional determinantlardan biri kimi qəbul edilməlidir. Bu yanaşma biznes mühitinin inkişafını qısamüddətli statistik artımlarla deyil, davranış dəyişiklikləri, rəsmi fəaliyyətin cəlbediciliyi və institusional etimadın möhkəmlənməsi prizmasından dəyərləndirməyə imkan verir. Məhz bu səbəbdən elektron dövlət xidmətlərinin inkişafı Azərbaycan üçün seçim deyil, iqtisadi modernləşmənin zəruri və praktik alətidir.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

Azərbaycan üzrə rəsmi məlumatlar göstərir ki, elektron xidmətlərin genişləndirildiyi son illərdə yeni qeydiyyatdan keçən müəssisələrin sayında ümumilikdə artım meyilləri, vergi hesabatlarının elektron qaydada təqdim edilmə payında isə əhəmiyyətli yüksəliş müşahidə olunur (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri). Bu, elektron mexanizmlərin biznes mühitinə təsirinin praktiki əksidir. Elektron qeydiyyat sistemi biznes mühitində "ilk qapı"nı təşkil edir.

Əvvəllər sahibkar:

- müxtəlif qurumlara fiziki müraciət etməli,
- sənədləri ayrı-ayrı orqanlara təqdim etməli,
- əlavə vaxt və nəqliyyat xərcləri ilə üzləşməli olurdu.

Elektron qeydiyyat bu ardıcıllığı onlayn prosesə çevirərək, həm prosedur sayını, həm də vaxt xərclərini azaldır. Praktiki nəticə olaraq:

- biznes açmaq qərarı verən şəxs üçün "ilk addımın psixoloji çəkisi" azalır,
- qeyri-formal fəaliyyətə üstünlük verən subyektlər üçün rəsmi qeydiyyat daha cəlbedici olur, dövlətin biznes subyektlərini uçota alması asanlaşır ki, bu da fiskal bazanın genişlənməsinə xidmət edir (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri; Məmmədov və Amanova, 2025).

Eyni məntiq elektron icazə və lisenziyalaşdırma sisteminə də aiddir. Onlayn icazə və lisenziya mexanizmi: subyektiv qərarvermə və "insan amili" risklərini zəiflədir, sahibkar üçün normativ tələblərin açıq və izlənilə bilən olmasını təmin edir, biznesin fəaliyyətinə başlama və genişlənmə prosesini sürətləndirir. Bu, beynəlxalq qiymətləndirmələrdə "formalizasiya effekti" kimi şərh olunur: prosedurlar nə qədər sadə və şəffaf olarsa, sahibkarların rəsmi sistemə daxil olma meyli bir o qədər yüksək olur (World Bank, 2020).

Müasir şəraitdə elektron vergi və gömrük xidmətləri biznes mühitinə təsir baxımından xüsusi əhəmiyyət daşıyır, çünki bu xidmətlər eyni zamanda iki əsas istiqaməti – əməliyyat səmərəliliyini və institusional etimadı formalaşdırır. Digər elektron dövlət xidmətlərindən fərqli olaraq, vergi və gömrük mexanizmləri biznes subyektlərinin gündəlik maliyyə axınları və risk qiymətləndirmələri ilə birbaşa bağlı olduğundan, onların keyfiyyəti biznes davranışlarına daha həssas təsir göstərir. Elektron vergi sisteminin tətbiqi praktiki baxımdan sahibkar-dövlət münasibətlərinin funksional modelini dəyişir. Vergi bəyannamələrinin elektron kabinet vasitəsilə təqdim edilməsi, vergi hesablamalarının avtomatlaşdırılması və hesabat dövrlərinin rəqəmsal platformalar üzərindən idarə olunması sahibkar üçün əməliyyat proseslərini sadələşdirir. Nəticədə mühasibatlıq və hesabatlılıqla bağlı vaxt itkisi azalır, inzibati yük minimuma endirilir. Bundan əlavə, fiziki kontaktın azalması vergi münasibətlərində subyektiv yanaşma və qeyri-rəsmi ödəniş risklərini zəiflədir. Bu proses bir tərəfdən transaksiya xərclərinin azalmasına, digər tərəfdən isə fiskal münasibətlərdə etimadın möhkəmlənməsinə şərait yaradır (OECD, 2019).

Bizim qənaətimizə görə, elektron vergi xidmətlərinin əsas üstünlüyü nəzarət mexanizmlərinin sərtləşdirilməsi deyil, rəsmi fəaliyyətin biznes üçün daha rasional və cəlbedici hala gətirilməsidir. Elektron mühitdə şəffaf və standartlaşdırılmış vergi prosedurları sahibkarın rəsmi sektorla işləmək motivasiyasını artırır, vergi intizamının davranış əsaslı güclənməsinə səbəb olur. Bu kontekstdə qeyri-formal dövriyyənin bir hissəsinin mərhələli şəkildə rəsmi uçota keçməsi inzibati təzyiqin deyil, institusional səmərəliliyin nəticəsi kimi qiymətləndirilməlidir. Elektron gömrük xidmətləri isə xüsusilə

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

xarici ticarət əməliyyatları həyata keçirən biznes subyektləri üçün strateji əhəmiyyət kəsb edir. Gömrük bəyannamələrinin onlayn rejimdə doldurulması, riskə əsaslanan baxış sistemlərinin tətbiqi və bəzi yüklər üzrə fiziki yoxlamaların minimuma endirilməsi sərhəd prosedurlarının səmərəliliyini artırır. Sərhəddə gözləmə müddətinin azalması logistika xərclərinin aşağı düşməsinə, tədarük zəncirində gecikmə risklərinin zəifləməsinə və əməliyyatların daha dəqiq planlaşdırılmasına imkan yaradır. Nəticədə ticarət fəaliyyətinin proqnozlaşdırıla bilənliyi yüksəlir ki, bu da biznes qərarlarının risk səviyyəsini azaldan əsas amillərdən biridir (United Nations, 2022).

Tədqiqat baxışımıza əsasən, elektron gömrük sistemlərinin təsiri yalnız əməliyyat sürəti ilə məhdudlaşmır. Bu mexanizmlər ticarət münasibətlərində institusional etimadı gücləndirir, dövlət-biznes qarşılıqlı əlaqələrində qeyri-müəyyənliyi azaldır və uzunmüddətli ticarət strategiyalarının formalaşdırılmasını asanlaşdırır. Regional və beynəlxalq ticarət axınları fonunda bu cür institusional üstünlüklər Azərbaycan biznes mühitinin rəqabət qabiliyyətinin yüksəldilməsi üçün mühüm baza yaradır. Beləliklə, tədqiqatımızın nəticələrinə görə, elektron vergi və gömrük xidmətləri Azərbaycanda biznes mühitinin keyfiyyətinin yaxşılaşdırılmasında texniki yenilikdən daha çox institusional transformasiya aləti kimi çıxış edir. Əməliyyat səmərəliliyinin artması ilə institusional etimadın paralel formalaşması biznes subyektlərinin rəsmi sektorla əməkdaşlığını stimullaşdırır və kölgə iqtisadiyyatının miqyasının azalması üçün davranış əsaslı mexanizm yaradır. Bu isə elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin qısamüddətli deyil, davamlı və struktur xarakter daşıdığını göstərir.

**Elektron dövlət xidmətlərinin struktur göstəriciləri və biznes mühitinin inkişafı**

Azərbaycanda dövlət qurumları üzrə e-gov.az platformasında 227**,** myGov platformasında isə 180 elektron xidmətin mövcudluğu elektron dövlət infrastrukturunun artıq geniş institusional əhatəyə malik olduğunu göstərir. Bu göstərici biznes subyektləri üçün dövlət xidmətlərinə çıxış imkanlarının kəmiyyət baxımından genişləndiyini təsdiqləyir (Azerbaijan Digital Government Platform, 2024; Azərbaycan Respublikasının Elektron Hökumətin İnkişafı Mərkəzi, 2024). Lakin biznes mühitinin keyfiyyətcə inkişafı baxımından həlledici göstərici tam elektron xidmətlərin sayı və payıdır**.** Cədvəl 1 göstərir ki, ölkədə 133 xidmət tam elektron**,** 47 xidmət isə qismən elektron formada təqdim olunur. Tam elektron xidmətlərin üstünlük təşkil etməsi sahibkar üçün fiziki müraciət ehtiyacını aradan qaldırmaqla əməliyyat vaxtını və transaksiya xərclərini azaldır. Eyni zamanda qismən elektron xidmətlərin qalması biznes mühitində paralel inzibati prosedurların saxlanıldığını və rəqəmsal transformasiyanın qeyri-bərabər getdiyini göstərir. Bu hal elektron dövlətin biznes üçün yaratdığı səmərəlilik effektini nisbi şəkildə məhdudlaşdırır (World Bank, 2020, GovTech maturity index: Building digital government systems; World Bank, 2020).

**Cədvəl 1. Azərbaycanda dövlət qurumları üzrə elektron xidmətlər və platformalar**

| **Dövlət qurumu** | **myGov-da e-xidmətlərin sayı** | **e-gov.az-da e-xidmət lərin sayı** | **Tam e-xidmətlər** | **Qismən e-xidmətlər** | **Mobil tətbiq üzərindən əlçatan xidmətlər** | **“Bir pəncərə” inteqrasiyası** |
|---|---|---|---|---|---|---|
| Dövlət Vergi Xidməti | 38 | 45 | 32 | 6 | 28 | Tam (myGov + ASAN) |
| Əmək və Əhalinin Sosial | 34 | 40 | 26 | 8 | 30 | Tam (myGov + ASAN) |

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Müdafiəsi Nazirliyi | | | | | | |
| Dövlət Gömrük Komitəsi | 18 | 22 | 14 | 4 | 10 | Qismən |
| Dövlət Miqrasiya Xidməti | 15 | 19 | 12 | 3 | 9 | Qismən |
| Əmlak Məsələləri üzrə Dövlət Xidməti | 16 | 21 | 11 | 5 | 7 | Tam (ASAN) |
| İqtisadiyyat Nazirliyi | 14 | 18 | 9 | 5 | 6 | Qismən |
| Daxili İşlər Nazirliyi | 10 | 15 | 6 | 4 | 5 | Qismən |
| Təhsil sahəsində dövlət qurumları | 12 | 17 | 8 | 4 | 6 | Qismən |
| Digər icra hakimiyyəti orqanları | 23 | 30 | 15 | 8 | 10 | Məhdud |
| **Cəmi** | **180** | **227** | **133** | **47** | **111** | — |

Cədvəl (Azerbaijan Digital Government Platform, 2024; Azərbaycan Respublikasının Elektron Hökumətin İnkişafı Mərkəzi, 2024) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Aparılan təhlillər qurumlar üzrə fərqli rəqəmsal intensivliyi üzə çıxarır. Vergi, sosial müdafiə və gömrük sahələrində elektron xidmətlərin sayının və tam elektronlaşma səviyyəsinin yüksək olması biznes mühitində fiskal münasibətlərin daha şəffaf və proqnozlaşdırıla bilən xarakter almasına şərait yaradır. Belə ki, Vergi Xidmətində 38-45 elektron xidmətin, onların böyük hissəsinin tam elektron formatda təqdim olunması biznes fəaliyyətinin uçot və hesabat yükünü əhəmiyyətli dərəcədə azaldır. Bu göstəricilər elektron dövlətin biznesyönümlü seqmentlərdə daha funksional tətbiq olunduğunu göstərir (Azerbaijan Digital Government Platform, 2024; Azərbaycan Respublikasının Elektron Hökumətin İnkişafı Mərkəzi, 2024). Cədvəldə 111 ədəd mobil əlçatan xidmətin mövcudluğu ayrıca diqqətəlayiq göstəricidir. Mobil platformalar vasitəsilə xidmətlərə çıxış mikro və kiçik sahibkarlıq subyektləri üçün dövlətlə münasibətləri sadələşdirir və regionlar üzrə biznes aktivliyinin genişlənməsinə imkan yaradır. Bununla belə, mobil xidmətlərin bəzi sahələrdə məhdud qalması elektron dövlətin biznes mühiti üçün yaratdığı potensialın tam reallaşmadığını göstərir (United Nations, 2022). Biznes mühitinin institusional keyfiyyətini müəyyən edən əsas göstəricilərdən biri də "bir pəncərə" inteqrasiyasının səviyyəsidir**.** Cədvələ əsasən yalnız bir neçə qurumda tam inteqrasiya təmin olunmuş, digər sahələrdə isə bu mexanizm qismən və ya məhdud xarakter daşıyır. Tam inteqrasiya olunan sahələrdə sahibkar üçün prosedurların sadələşməsi və normativ qeyri-müəyyənliyin azalması müşahidə olunur. Qismən inteqrasiya isə elektron xidmətlərin çoxluğuna baxmayaraq, biznes mühitində fragmentasiya riskini saxlayır (Azerbaijan Digital Government Platform, 2024,

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

https://mygov.az; Azərbaycan Respublikasının Elektron Hökumətin İnkişafı Mərkəzi, 2024, https://www.e-gov.az; ASAN Xidmət, 2024, Azərbaycanda inteqrasiya olunmuş dövlət xidmətlərinin göstərilməsi modeli). Təhlillər əsasında formalaşan əsas baxış ondan ibarətdir ki, elektron dövlət xidmətləri Azərbaycanda biznes mühitinin əməliyyat səmərəliliyini artıran mühüm institusional baza formalaşdırmışdır. Lakin qismən elektron xidmətlərin mövcudluğu və inteqrasiya səviyyəsinin qeyri-bərabərliyi göstərir ki, mövcud inkişaf mərhələsi hələ tam institusional yetkinlik səviyyəsinə çatmamışdır. Bu baxımdan elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin gücləndirilməsi üçün əsas prioritetlər tam elektronlaşmanın genişləndirilməsi, mobil funksionallığın artırılması və “bir pəncərə” prinsipinin biznes prosesi mərkəzli şəkildə tətbiqi olmalıdır.

Elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin qiymətləndirilməsi təkcə rəqəmsal platformaların mövcudluğu ilə deyil, həmin xidmətlərdən istifadə imkanlarını müəyyən edən texnoloji təminat səviyyəsi ilə sıx bağlıdır. Bu baxımdan, müəssisələrdə mövcud olan kompüterlərin sayı elektron dövlət mexanizmlərinin biznes proseslərinə real şəkildə inteqrasiya olunmasını şərtləndirən əsas göstəricilərdən biri hesab edilə bilər. Regionlar üzrə bu göstəricinin müqayisəli təhlili elektron dövlət xidmətlərinin ölkə miqyasında biznes fəaliyyətinə necə təsir etdiyini, hansı ərazilərdə bu təsirin praktik nəticələr doğurduğunu, hansı regionlarda isə hələ potensial səviyyədə qaldığını müəyyənləşdirməyə imkan verir (Mammadov, 2023).

1 saylı qrafik üzrə aparılan qiymətləndirmə göstərir ki, rəqəmsal tutumun təxminən üçdə ikisi Bakı və paytaxtətrafı zonalarda cəmlənmişdir. Bu struktur nəticəsində elektron vergi, gömrük, qeydiyyat, lisenziyalaşdırma və digər e-xidmətlərin yaratdığı əməliyyat səmərəliliyi əsasən həmin məkanlarda reallaşır. Başqa sözlə, elektron dövlətin biznes üçün formalaşdırdığı real üstünlüklər regionlar üzrə bərabər intensivlikdə hiss olunmur, daha çox mərkəzləşmiş xarakter daşıyır. Orta paya malik iqtisadi rayonlar (3-4,5% intervalında) elektron dövlət xidmətlərindən istifadə baxımından potensial imkan zonası kimi çıxış edir. Bu regionlarda e-xidmətlər formal olaraq əlçatan olsa da, müəssisələrin texniki təminatının məhdudluğu elektron dövlət mexanizmlərinin biznes proseslərini köklü şəkildə dəyişdirməsinə imkan vermir. Nəticədə elektron dövlət burada əsasən dəstəkləyici funksiya daşıyır, transformasiyaedici təsir isə hələ tam formalaşmamışdır. Aşağı paya malik regionlarda (2% və daha az) vəziyyət daha məhduddur. Bu ərazilərdə müəssisələrin zəif kompüter təminatı elektron dövlət xidmətlərinin biznes mühitində əsas hərəkətverici qüvvəyə çevrilməsini əngəlləyir. Elektron xidmətlər mövcud olsa da, rəqəmsal imkanların kifayət etməməsi səbəbindən onların iqtisadi effekti potensial səviyyədə qalır (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri). Xüsusilə Şərqi Zəngəzur üzrə 1%-lik pay, post-konflikt bərpa mərhələsinin reallıqları fonunda, rəqəmsal dövlət alətlərinin regionun iqtisadi reinteqrasiyasında hələ ilkin mərhələdə olduğunu göstərir. Ümumilikdə, bu mənzərə təsdiqləyir ki, elektron dövlət xidmətlərinin biznes mühitinə təsiri yalnız xidmətlərin mövcudluğu ilə deyil, regionlar üzrə rəqəmsal tutumun səviyyəsi ilə müəyyən olunur. Buna görə də elektron dövlətin növbəti inkişaf mərhələsində əsas diqqət regionlarda biznes subyektlərinin texnoloji imkanlarının gücləndirilməsinə yönəldilməlidir ki, rəqəmsal xidmətlər real iqtisadi nəticələr yarada bilsin.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

**Qrafik 1. İqtisadi rayonlar üzrə rəqəmsal tutumun pay bölgüsü (2024, %)**




Qrafik (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Tədqiqat göstərir ki, elektron dövlət xidmətlərinin biznes mühitinə təsiri texnoloji təminatla birbaşa bağlıdır. Xidmətlərin mövcudluğu özlüyündə kifayət etmir; əsas həlledici amil biznes subyektlərinin bu xidmətləri real iqtisadi üstünlüyə çevirə biləcək rəqəmsal tutuma malik olmasıdır. Bu baxımdan, elektron dövlət siyasətinin növbəti mərhələsi yalnız platformaların və xidmətlərin genişləndirilməsinə deyil, regionlarda müəssisələrin rəqəmsal potensialının gücləndirilməsinə fokuslanmalıdır. Məhz bu yanaşma elektron dövlət mexanizmlərini formal idarəetmə alətindən çıxararaq, biznes mühitinin inkişafında real və balanslaşdırılmış katalizatora çevirə bilər.

İqtisadi rayonlar üzrə internetə çıxışı olan müəssisələrin pay bölgüsü elektron dövlət xidmətlərinin biznes mühitində real təsir imkanlarını qiymətləndirmək baxımından mühüm analitik çərçivə yaradır. Çünki elektron vergi, gömrük, qeydiyyat, lisenziyalaşdırma və digər rəqəmsal dövlət xidmətlərinin effektivliyi birbaşa olaraq biznes subyektlərinin internetə çıxış səviyyəsi ilə müəyyən olunur. 2 saylı qrafikdəki mənzərə göstərir ki, internetə çıxışı olan müəssisələrin 62,5%-nin Bakı şəhərində cəmlənməsi elektron dövlətin biznes üçün yaratdığı əməliyyat üstünlüklərinin əsasən paytaxtda reallaşdığını təsdiqləyir. Bu, rəqəmsal dövlət mexanizmlərinin ölkə üzrə bərabər paylanmadığını, biznes mühitinə təsirin isə mərkəzləşmiş xarakter daşıdığını göstərir. Nəticədə elektron dövlətin vaxt itkisinin azalması, prosedurların sadələşdirilməsi və inzibati xərclərin minimallaşdırılması kimi üstünlükləri regionlara nisbətən Bakıda daha aydın hiss olunur. Abşeron-Xızı, Naxçıvan Muxtar Respublikası və Gəncə-Daşkəsən iqtisadi rayonlarının hər birinin təxminən 4-5% paya malik olması bu regionlarda elektron dövlət xidmətlərindən istifadə üçün müəyyən texniki baza formalaşdığını göstərir. Lakin bu səviyyə elektron dövlətin biznes proseslərini köklü şəkildə dəyişdirən mexanizmə çevrilməsi üçün hələ kifayət deyil. Elektron xidmətlər mövcud olsa da, onların təsiri daha çox funksional dəstək xarakteri daşıyır. Mərkəzi Aran, Lənkəran-Astara, Qarabağ və Şəki-Zaqatala kimi iqtisadi rayonlar 3-3,5% intervalında payla elektron dövlət-biznes münasibətlərində potensial inkişaf zonaları kimi çıxış edir. Bu ərazilərdə internetə çıxış imkanları elektron dövlət xidmətlərinin tətbiqinə şərait yaratsa da, müəssisələrin rəqəmsal imkanlarının məhdudluğu həmin xidmətlərin biznes mühitində transformasiyaedici rolunu zəiflədir. Burada elektron dövlət daha çox formal əlçatanlıq mərhələsində qalır. Daha aşağı paya malik iqtisadi rayonlarda isə (təxminən 2-2,5% və daha az) elektron dövlət xidmətlərinin biznes mühitinə təsiri əsasən dolayı və məhdud xarakter daşıyır (Azərbaycan Dövlət Statistika

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri). İnternetə çıxışın zəif olması elektron xidmətlərin real iqtisadi effektə çevrilməsinə mane olur. Xüsusilə Şərqi Zəngəzur üzrə 0,8%-lik pay post-konflikt bərpa mərhələsinin reallıqları fonunda rəqəmsal dövlət alətlərinin regionun iqtisadi reinteqrasiyasında hələ ilkin mərhələdə olduğunu göstərir.

**Qrafik 2. İqtisadi rayonlar üzrə internetə çıxışı olan müəssisələr (2024, %)**




Qrafik (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Yekun nəticə ondan ibarətdir ki, elektron dövlət xidmətlərinin biznes mühitinə təsiri xidmətlərin mövcudluğundan çox, müəssisələrin internetə çıxış səviyyəsi ilə müəyyən olunur. Rəqəmsal dövlət infrastrukturu ölkə üzrə formalaşsa da, biznes subyektlərinin texniki hazırlığındakı regional fərqlər bu xidmətlərin təsirini asimmetrik edir. Buna görə də elektron dövlət siyasətinin növbəti mərhələsində əsas prioritet regionlarda biznes subyektlərinin rəqəmsal infrastrukturunun gücləndirilməsi olmalıdır. Yalnız bu halda elektron dövlət mexanizmləri biznes mühitinin inkişafında real, balanslı və davamlı nəticələr yarada bilər.

Müəssisələrdə internetə çıxışı olan kompüterlərin son dövr üzrə sahələr üzrə bölgüsü elektron dövlət xidmətlərinin iqtisadi mühitdə hansı istiqamətlərdə real funksional rol oynadığını aydın şəkildə göstərir. Bu göstəricilər elektron dövlətin yalnız texniki infrastruktur kimi deyil, biznes davranışlarını formalaşdıran institusional mexanizm kimi hansı sahələrdə dərinləşdiyini və harada hələ səthi qaldığını müəyyən etməyə imkan verir. 3 saylı qrafikdəki məlumatların təhlili göstərir ki, rəqəmsal imkanların əsas hissəsi təhsil və elm sahələrində cəmlənmişdir (32%). Bu üstünlük təsadüfi xarakter daşımır.

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

**Qrafik 3. İqtisadi sahələr üzrə internetə çıxışı olan kompüterlərin pay bölgüsü (2024, %)**




Qrafik (Azərbaycan Dövlət Statistika Komitəsi, 2024, İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024, Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri) mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Elektron dövlət xidmətlərinin dizaynı, tətbiqi və davamlı işləməsi üçün zəruri olan bilik, analitik düşüncə və rəqəmsal bacarıqlar məhz bu sahələrdə formalaşır. Beynəlxalq təcrübədə də e-dövlətin uzunmüddətli effektivliyi insan kapitalının keyfiyyəti ilə birbaşa əlaqələndirilir. Məsələn, Estoniya və Skandinaviya ölkələrində elektron dövlətin uğuru təhsil və elmin rəqəmsal transformasiyası ilə paralel inkişaf etmişdir (OECD, 2019). Bu baxımdan mövcud göstərici Azərbaycanda biznes mühitinin rəqəmsal gələcəyinin intellektual dayanıqlığını təmin edən müsbət amil kimi qiymətləndirilə bilər.

Sosial sahələr və dövlət idarəetməsi üzrə göstəricinin 23% səviyyəsində olması elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin əsasən dövlət mexanizmləri üzərindən reallaşdığını göstərir. Elektron vergi, sosial sığorta, məşğulluq və icazə sistemləri biznes subyektləri ilə dövlət arasında münasibətləri daha strukturlaşdırılmış və proqnozlaşdırıla bilən hala gətirir. İƏİT ölkələrinin təcrübəsi göstərir ki, biznes mühitində etimadın artması ilk növbədə dövlət xidmətlərinin rəqəmsallaşması ilə başlayır (OECD, 2020). Azərbaycanın mövcud strukturu da bu ümumi institusional modelə uyğun gəlir və e-dövlətin biznes üçün sabit çərçivə formalaşdırdığını təsdiqləyir.

Rabitə və texnologiya sahəsinin 5% paya malik olması kəmiyyət baxımından məhdud görünsə də, bu sahə elektron dövlət xidmətlərinin funksional əsasını təşkil edir. Elektron platformaların təhlükəsizliyi, məlumat axınının davamlılığı və sistemlərin qarşılıqlı inteqrasiyası birbaşa bu sektorun inkişaf səviyyəsindən asılıdır. Beynəlxalq praktikada (Finlandiya, Sinqapur) bu sahənin payı da adətən nisbətən aşağı olur, lakin strateji təsir gücü yüksəkdir. Azərbaycanın mövcud göstəricisi qənaətbəxş hesab edilsə də, elektron dövlət xidmətlərinin keyfiyyət mərhələsinə keçidi üçün bu sahədə daha dərin texnoloji modernləşmə zəruridir (World Bank, 2020).

Maliyyə sektorunda rəqəmsal təminatın 10% paya çatması elektron dövlət xidmətlərinin biznes mühitinə birbaşa təsirinin ən aydın nümunələrindən biridir. Elektron vergi bəyannamələri, onlayn hesabatlılıq və rəqəmsal ödəniş mexanizmləri maliyyə münasibətlərində şəffaflığı artırmaqla yanaşı, biznes subyektləri üçün əməliyyat xərclərini də azaldır. Beynəlxalq səviyyədə maliyyə sektoru e-dövlətin əsas istifadəçi qruplarından biri hesab olunur və bu baxımdan Azərbaycanın göstəricisi qlobal tendensiyalarla uyğun inkişaf trayektoriyasını əks etdirir (IMF, 2021).

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

Ticarət sektorunun 7% payla təmsil olunması elektron dövlət xidmətlərinin bazar mexanizmləri ilə əlaqəsinin formalaşdığını göstərir. Elektron gömrük, e-qaimə və onlayn nəzarət alətləri ticarət dövriyyəsini sürətləndirir və qeyri-rəsmi fəaliyyət imkanlarını daraldır. Avropa İttifaqı ölkələrinin təcrübəsi göstərir ki, bu mexanizmlər rəqabət mühitinin sağlamlaşdırılmasında mühüm rol oynayır (European Commission, 2020). Azərbaycanın mövcud göstəricisi ticarət sahəsində orta səviyyəli, lakin inkişaf potensialı yüksək rəqəmsal mühitin formalaşdığını göstərir.

Emal sənayesində payın 4% olması elektron dövlət xidmətlərinin bu sahədə əsasən inzibati xarakter daşıdığını nümayiş etdirir. Rəqəmsal texnologiyalar istehsal proseslərinin özünə hələ kifayət qədər sirayət etməmişdir. Halbuki inkişaf etmiş sənaye ölkələrində e-dövlət platformaları istehsal zənciri ilə inteqrasiya olunaraq sənaye siyasətinin bir hissəsinə çevrilmişdir (Schwab, 2018). Bu baxımdan Azərbaycanın mövcud vəziyyəti beynəlxalq standartlardan geri qalma riskini göstərir. Mədənçıxarma sənayesində 2% göstərici elektron dövlət xidmətlərinin əsasən icazə və nəzarət mexanizmləri ilə məhdudlaşdığını göstərir. Beynəlxalq təcrübədə bu sahədə rəqəmsallaşma mərhələli şəkildə aparılır və məlumat əsaslı idarəetmə getdikcə genişlənir. Azərbaycanın göstəricisi struktur baxımından tipik olsa da, biznes mühitinin innovativ transformasiyası üçün əlavə rəqəmsal alətlərə ehtiyac qalmaqdadır. Kənd təsərrüfatında rəqəmsal təminatın cəmi 1% təşkil etməsi elektron dövlət xidmətlərinin biznes mühitinə təsirinin ən zəif olduğu sahəni nümayiş etdirir. Bu, regionlar üzrə rəqəmsal bərabərsizliyi və aqrar biznesin elektron platformalardan məhdud istifadəsini göstərir. Halbuki Hollandiya və Danimarka kimi ölkələrdə aqrar sektor üçün rəqəmsal dövlət xidmətləri məhsuldarlığın və ixrac imkanlarının artırılmasında əsas alət kimi çıxış edir (FAO, 2021). Bu baxımdan mövcud vəziyyət strateji müdaxilə tələb edən kritik sahə kimi qiymətləndirilməlidir. Digər sahələr üzrə 16% pay elektron dövlət xidmətlərindən istifadənin fragmentar xarakter daşıdığını və sistemli modelin hələ tam formalaşmadığını göstərir. Bu isə biznes mühitində rəqəmsallaşmanın sahələr üzrə qeyri-bərabər yayılmasını təsdiqləyir. Nəticə olaraq qeyd edilə bilər ki, elektron dövlət xidmətləri Azərbaycanda biznes mühitinin inkişafına əsasən xidmət və institusional sahələr üzərindən təsir göstərir və bu təsir bir sıra istiqamətlər üzrə beynəlxalq təcrübə ilə uyğunluq təşkil edir. Bununla yanaşı, istehsal və aqrar sektorların rəqəmsal transformasiyası zəif qalmaqda davam edir. Bu isə elektron dövlət xidmətlərinin növbəti mərhələdə sadəcə inzibati mexanizm deyil, rəqabətqabiliyyətli və inklüziv biznes mühitinin formalaşdırılması üçün strateji inkişaf aləti kimi yenidən dizayn edilməsini zəruri edir.

**Nəticə.** Yekun olaraq demək olar ki, elektron dövlət xidmətləri müasir biznes mühitinin formalaşmasında yalnız texnoloji yenilik deyil, eyni zamanda institusional davranışların və iqtisadi münasibətlərin yenidən qurulması mexanizmi kimi çıxış edir. Rəqəmsal platformalar sahibkarlıq fəaliyyətində inzibati prosedurların məzmununu sadələşdirir, əməliyyatların vaxt və xərc yükünü azaldır, dövlətlə biznes arasında qarşılıqlı münasibətləri daha şəffaf və ölçülə bilən müstəviyə keçirir. Bu isə biznes qərarlarının daha rasional və proqnozlaşdırılabilən şəraitdə qəbul olunmasına imkan yaradır. Eyni zamanda aparılan təhlil göstərir ki, elektron dövlət xidmətlərinin iqtisadi effekti məkan üzrə eyni intensivliklə formalaşmır. Rəqəmsal infrastrukturun səviyyəsi, texnoloji bacarıqların yayılma dərəcəsi və institusional çeviklik regionlar arasında fərqləndikcə, eyni hüquqi çərçivə fərqli praktiki nəticələr doğurur. Nəticədə, bəzi ərazilərdə elektron xidmətlər biznes fəaliyyətinin real sürətləndirici amilinə çevrildiyi halda, digər ərazilərdə bu potensial hələ tam reallaşmır. Bu vəziyyət rəqəmsal inkişafın sosial-iqtisadi ölçüsünü ön plana çıxararaq inklüziv yanaşmaların əhəmiyyətini artırır. Digər tərəfdən, elektron xidmətlərin bir hissəsinin formal xarakter daşıması, normativ tənzimləmənin texnoloji dəyişikliklərlə eyni templə yenilənməməsi və istifadəçi təcrübəsinin

ISSN 2310-4104 E-ISSN 2790-5799
10.30546/2790-5799.01.2026.1023

kifayət qədər nəzərə alınmaması rəqəmsallaşmanın təsir gücünü məhdudlaşdıra bilir. Bu baxımdan elektron dövlət sabit və yekun bir model deyil, davamlı adaptasiya və institusional öyrənmə tələb edən açıq sistem kimi dəyərləndirilməlidir. Ümumiləşdirilmiş nəticə ondan ibarətdir ki, elektron dövlət xidmətləri biznes mühitinin keyfiyyətini yüksəldən mühüm alət olsa da, onların uzunmüddətli səmərəliliyi yalnız texnoloji həllərlə deyil, insan kapitalının inkişafı, hüquqi çeviklik, regional balans və etimad mühitinin gücləndirilməsi ilə birgə təmin oluna bilər. Gələcək inkişaf mərhələsində əsas prioritet rəqəmsal xidmətlərin mövcudluğunu deyil, onların real iqtisadi dəyər yaradan, regionlar üzrə balanslaşdırılmış və geniş istifadə olunan institusional mexanizmə çevrilməsini təmin etməkdən ibarət olmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası. (2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı. 2021.
2. Azərbaycan Respublikası. (2022). Azərbaycan Respublikasının 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyası. Bakı. https://president.az/articles/55445
3. Azerbaijan Digital Government Platform. (2024). myGov – rəqəmsal dövlət xidmətləri portalı. https://mygov.az
4. Azərbaycan Respublikasının Elektron Hökumətin İnkişafı Mərkəzi. (2024). Elektron hökumət portalı (e-gov.az). https://www.e-gov.az
5. ASAN Xidmət. (2024). Azərbaycanda inteqrasiya olunmuş dövlət xidmətlərinin göstərilməsi modeli. https://asan.gov.az
6. Azərbaycan Dövlət Statistika Komitəsi. (2024). İnformasiya cəmiyyəti və rəqəmsal inkişaf göstəriciləri. Bakı: DSK.2024.
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri. Bakı: DSK. 2024.
8. Y.Məmmədov, Ş.Amanova (2025). “Azərbaycanda rəqəmsal ödəniş xidmətləri bazarının müasir inkişafı.” Bakı, 2025. https://economics.org.az/administrator/uploads/media/Bulleten_Rəqəmsal.pdf.
9. Mammadov, Y. A. (2023). Современный уровень развития регионов Азербайджанской Республики. In Materials of the VIII International Scientific and Practical Conference (May 11, 2023, Makhachkala, Russia). https://www.researchgate.net/publication/375075180_SOVREMENNYJ_UROVEN_RAZVITIA_REGIONOV_AZERBAJDZANSKOJ_RESPUBLIKI
10. Eurostat. (2024). Internet access of households by degree of urbanisation. Luxembourg: European Commission. https://ec.europa.eu/eurostat
11. European Commission. (2020). Digital Economy and Society Index (DESI) 2020. Brussels.
12. FAO. (2021). Digital technologies in agriculture and rural areas. Rome: FAO.
13. IMF. (2021). Digitalization and public finance. Washington, DC: International Monetary Fund.
14. International Telecommunication Union. (2023). Measuring digital development: Facts and figures. Geneva: ITU. https://www.itu.int
15. Musayeva, A. A., Mammadov, Y. A., Madatova, S. G., Gasimov, A. I., & Ahadova, K. N. (2020). Evaluation of the tax policy efficiency under uncertainty. In Proceedings of the International Conference on Theory and Application of Soft Computing, Computing with Words and Perceptions (ICSCCW 2019) (Advances in Intelligent Systems and Computing, Vol. 1095, pp. 512–518). Springer. https://doi.org/10.1007/978-3-030-35249-3_65

ISSN 2310-4104 E-ISSN 2790-5799

10.30546/2790-5799.01.2026.1023

16. North, D. C. (1990). Institutions, institutional change and economic performance. Cambridge: Cambridge University Press, 152 pp. https://www.cambridge.org/core/books/institutions-institutional-change-and-economic-performance
17. OECD. (2020). Digital government index 2019: Results and key findings. Paris: OECD Publishing. https://www.oecd.org/gov/digital-government-index-2019-results.pdf
18. OECD. (2019). Tax administration 2019: Comparative information on OECD and other advanced and emerging economies. Paris: OECD Publishing.
19. OECD. (2020). The path to becoming a data-driven public sector. Paris: OECD Publishing.
20. OECD. (2019). Digital government review: Towards a data-driven public sector. Paris: OECD Publishing. https://www.oecd.org/gov/digital-government/
21. Schwab, K. (2018). The Fourth Industrial Revolution. New York: Crown Business. World Bank. (2022). GovTech maturity index 2022. Washington, DC: World Bank.
22. Fuad Ganbarov, Klaudia Smoląg, Rashad Muradov, Konul Aghayeva, Rumella Jafarova and Yashar Mammadov. https://www.mdpi.com/2071-1050/12/12/5116., Sustainable Development of the Mortgage Market in Azerbaijan: Commercial Risks of Housing Construction, Social Vision, and State Influence.
23. United Nations. (2022). E-Government Survey 2022: The future of digital government. New York: United Nations. https://publicadministration.un.org/egovkb
24. United Nations. (2022). United Nations e-government survey 2022: The future of digital government. New York, NY: United Nations Department of Economic and Social Affairs. https://publicadministration.un.org/egovkb/en-us/Reports/UN-E-Government-Survey-2022
25. World Bank. (2020). Doing business 2020: Comparing business regulation in 190 economies. Washington, DC: World Bank. https://www.worldbank.org/en/programs/business-enabling-environment/doing-business-legacy
26. World Bank. (2020). GovTech maturity index: Building digital government systems. Washington, DC: World Bank.
27. World Bank. (2020). Doing business 2020: Comparing business regulation in 190 economies. Washington, DC: World Bank Group. https://www.worldbank.org/en/programs/business-enabling-environment

## DEVELOPMENT DIRECTIONS OF THE BUSINESS ENVIRONMENT BASED ON ELECTRONIC GOVERNMENT SERVICES

### ABSTRACT

**The purpose of the study** is to assess the impact of electronic government services on the business environment, to identify the mechanisms through which they influence the development of entrepreneurial activity, the reduction of administrative costs, and the improvement of the investment climate. At the same time, the directions for enhancing the business environment based on digital public services are substantiated.

**Research methodology** – the study employs comparative analysis, a systemic approach, statistical analysis, analysis of regulatory and legal documents, and generalization of empirical data. Analytical and logical generalization methods were applied to evaluate the impact of electronic services on business entities.

**Practical significance of the study** – the results can be used by public authorities in decision-making processes aimed at optimizing electronic services, expanding digital platforms for business, and improving the entrepreneurial environment. Moreover, the research contributes to increasing the transparency and competitiveness of the business environment.

**Research results** – the conducted analysis shows that the widespread implementation of electronic government services facilitates the simplification of business registration, licensing, and taxation procedures, reduces time and financial costs, and stimulates entrepreneurial activity. Digitalization enhances the efficiency and institutional quality of the business environment.
**Scientific novelty of the study** – the research provides a comprehensive analysis of the relationship between electronic government services and business environment development, systematically substantiating the mechanisms through which digital transformation affects the entrepreneurial ecosystem. A conceptual approach to determining the directions for business environment development based on electronic services is proposed.

**Keywords:** electronic government, business environment, digitalization, institutional development, digital inclusion, state–business relations.

## НАПРАВЛЕНИЯ РАЗВИТИЯ БИЗНЕС-СРЕДЫ НА ОСНОВЕ ЭЛЕКТРОННЫХ ГОСУДАРСТВЕННЫХ УСЛУГ

## АННОТАЦИЯ

**Цель исследования** — оценить влияние электронных государственных услуг на бизнес-среду, определить механизмы их воздействия на развитие предпринимательской деятельности, снижение административных издержек и улучшение инвестиционного климата. Одновременно обосновываются направления совершенствования бизнес-среды на основе цифровых государственных услуг.
**Методология исследования** — в ходе исследования использованы методы сравнительного анализа, системного подхода, статистического анализа, анализа нормативно-правовых документов и обобщения эмпирических данных. Для оценки влияния электронных услуг на субъекты бизнеса применялись аналитические и логико-обобщающие методы.
**Практическая значимость исследования** — результаты исследования могут быть использованы государственными органами при принятии решений, направленных на оптимизацию электронных услуг, расширение цифровых платформ для бизнеса и улучшение предпринимательской среды. Кроме того, исследование способствует повышению прозрачности и конкурентоспособности деловой среды.
**Результаты исследования** — проведённый анализ показывает, что широкое внедрение электронных государственных услуг способствует упрощению процедур регистрации бизнеса, лицензирования и налогообложения, снижению временных и финансовых затрат, а также активизации предпринимательской деятельности. Цифровизация повышает эффективность и институциональное качество бизнес-среды.
**Научная новизна исследования** — в работе комплексно проанализирована взаимосвязь между электронными государственными услугами и развитием бизнес-среды, системно обоснованы механизмы влияния цифровой трансформации на предпринимательскую экосистему. Предложен концептуальный подход к определению направлений развития бизнес-среды на основе электронных услуг.

**Ключевые слова:** электронное государство, бизнес-среда, цифровизация, институциональное развитие, цифровая инклюзивность, государственно-бизнесовые отношения.

*Məqalə daxil olmuşdur: 13.01.2026*
*Təkrar işləməyə göndərilmişdir: 18.01.2026*
*Çapa qəbul edilmişdir: 27.01.2026*

*Дата поступления статьи в редакцию: 13.01.2026*
*Отправлено на повторную обработку: 18.01.2026*
*Принято к печати: 27.01.2026*

*The date of the admission of the article to the editorial office: 13.01.2026*
*Send for reprocessing: 18.01.2026*
*Accepted for publication: 27.01.2026*